# Qubanın ağ alması




Y. HİDAYƏTOĞLU

**Məqaləmizə bu başlığı nahaqdan verməmişik. Quba deyəndə ilk növbədə gözlərimiz qarşısında ucsuz-bucaqsız alma bağları canlanır. Vətənimizin bu dilbər güşəsi həm də özünün əsrarəngiz təbiəti, zümrüd donlu meşələri, başı ağçalmalı dağları, dişgöynədən saf bulaqları ilə diqqət çəkir...**

**Təsadüfi deyil ki, bu gözəl torpaq daim qonaqlı-qaralı olub. Eyni ənənə bu gün də davam edir. Yay aylarında Qubaya səfər edənlərin sayı daha da artır. Bu sırada xarici ölkə vətəndaşlarının sayı kifayət qədərdir. Bütün bu amillər bölgədə turizmin inkişafı istiqamətində müvafiq tədbirlər görülməsinin, rəngarəng layihələr gerçəkləşdirilməsinin təzahürüdür.**

Bölgəyə səfərimiz zamanı Quba Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elxan Məhərrəmov son vaxtlar aparılan işlərdən, qarşıda duran vəzifələrdən söhbət açdı:

Burada bir az haşiyəyə çıxaraq bildirək ki, *Məhərrəmov Elxan İmran oğlu 1967-ci il sentyabrın 30-da anadan olub. Bakı Dövlət Universitetini bitirib. Əmək fəaliyyətinə 1988-ci ildə başlayıb. Müxtəlif məsul vəzifələrdə çalışıb. Quba Rayon Gənclər və İdman İdarəsinin rəisi, rayon icra hakimiyyəti başçısının müavini işləyib.*

*2001-ci ildən Quba Rayon Mədəniyyət Şöbəsinin, 2006-cı ildən rayon mədəniyyət və turizm şöbəsinin müdiridir.*

*Ailəlidir, 2 övladı var.*

Harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq həmişə işinə məsuliyyətlə yanaşması, ona göstərilən etimadı ləyaqətlə doğrultması ilə fərqlənib.

O, bu ənənəyə sonuncu iş yerində də sadiq qalıb. Mədəniyyətimizin təbliği, turizmin inkişafı, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində fəaliyyəti razılıq doğurur. Bölgədə bu sahədə gerçəkləşdirilən neçə-neçə layihələr bilavasitə onun rəhbərliyi və təşkilatçılığı sayəsində həyata keçirilib.

- Rayonumuzun ərazisi 2610 kvadrat kilometr, əhalisi 153 min nəfərə yaxındır. Burada 31

inzibati ərazi vahidi, bir şəhər, iki şəhərtipli qəsəbə, 155 kənd vardır.

Rayonda 146 orta ümumtəhsil məktəbi, 17 məktəbəqədər, 5 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərir. 275 çarpayılıq mərkəzi xəstəxana, şəhər ,sağlamlıq mərkəzi, psixonevroloji reabilitasiya mərkəzi, doğum evi, 14 qəsəbə və kənd sağlamlıq mərkəzi, 9 feldşer-mama məntəqəsi, gigiyena-epidemologiya mərkəzi, qanköçürmə stansiyası var.

Quba rayonunda 22 mədəniyyət evi, 61 klub, 107 kütləvi kitabxana, H. Əliyev adına muzey, tarix-diyarşünaslıq muzeyi, şəhidlərin xatirə muzeyi, uşaq incəsənət və musiqi məktəbləri, sosial-iqtisadi kollec, sənaye pedagoji texnikumu, müəllimlər institutu, elmi-təd-



qiqat bağçılıq və subtropik bitkilər institutu, peşə və türk litseyləri, Quba Olimpiya Kompleksi vardır.

Quba şəhəri Böyük Qafqaz sıra dağlarının Şimal-Şərq yamaclarının ətəyində, Cənub-Qərbdə Qudyalçayın sağ sahilində, Bakı-Dərbənd yolunun 166 kilometrliyindədir.

**Qubanın ətrafında mənzərəli guşələr çoxdur. Qəçrəş, Balbulaq, həmçinin dərinliyi 600 metrə qədər olan Təngaltı yarğanı xüsusilə populyar olub, turistlərdə xüsusi maraq doğurur. Vəlvəliçay üzərindəki məşhur Afurca şəlaləsi Azərbaycanın təbii abidələri siyahısına daxil edilmiş və dövlət tərəfindən mühafizə olunur.**



Burada öz qeyri-adiliyi və bənzərsizliyi ilə turistlərin və səyahətçilərin diqqətini cəlb edən başqa şəlalələr də mövcuddur.

Bu mənzərəli yerləri turist cığırları ilə gəzib dolaşmağın özgə ləzzəti var. Dağlara tərəf qalxdıqca hündür ağaclar kollarla əvəz olunur, daha yuxarıda - Xaşiçay çayının sahilində isə dağ dərəsindəki qayalardan termal sular süzülür.

Haçansa lap qədim vaxtlarda bacarıqlı sənətkarlar burada birbaşa qaya süxurunda üç ədəd oyuq açaraq özünəməxsus vannalar düzəltmiş və onların kənarını daşla hörmüşlər. Buraya gələnlər həmin vannalarda kükürd-hidrogen tərkibli şəfalı isti suda çimə bilirlər. Səriştəli adamların dediyinə görə, bu təbii daşdan hazırlanmış vanna suyun şəfalı təsirini daha da artırır.

Vaxtilə məşhur fransız yazıçısı Aleksandr Düma Azərbaycana səyahətə gələrkən bu yerlərdə olmuşdur. O, yolun kənarında dincələrkən yaxınlıqda düşərgə salıb qəlyanaltı edən qubalı-







lar Dümanı öz tonqallarının yanına çağırırlar. Qubalıların qoyunu necə məharətlə kəsib təmizləmələri və Dümanı kababa qonaq etmələri ona çox güclü təsir bağışlayır.

Zəmanəmizin ən böyük səyyahı sayılan Norveç alimi Tur Heyyerdal da Azərbaycana gələrkən Qubaya getmişdir. O, belə hesab edirdi ki, "Edda" eposunda adları çəkilən "aslar" azərbaycanlıların qədim əcdadları olmuş və xalqların böyük köçürdülməsi dövründə Avropanın şimalına gedib çıxmışdılar.

Rayonda Qubadan 65 km məsafədə uca dağlar qoynunda (dəniz səviyyəsindən 2500 metr yüksəklikdə) yerləşən Xınalıq kəndinin əhalisi ayrıca unikal etnik qrupdur.

Xınalıq kəndində Şahdağ qrupuna aid olan etnik xınalıqlılar yaşayırlar (özlərini ketş adlandırırlar). Xınalıq kəndi Böyük Qafqaz dağlarının 2300 m. yüksəkliyində yerləşir. Kənd əhalisi dünyada ona heç oxşarı olmayan bir dildə danışırlar. Tarixən xınalıqlılar, indiki Azərbaycan ərazisi sayılan Qafqaz Albaniyasında yaşayan xalqların törəmələridir.



**Tarixçilərin ehtimalına görə, Xınalıq kəndi hələ bizim eramızdan əvvəl salınmışdır. Qədim dövrlərdən bəri, indiki xınalıqlıların həyat tərzində çox da böyük dəyişikliklər baş verməmişdir. Xınalıqlılar özlərini Nuh peyğəmbərin nəslindən olanlar kimi sayırlar.**

Onların fikrincə, Nuh peyğəmbərin tufanı dövründə Ketş kəndi Ketş dağlarında yerləşirdi. Sonradan zəlzələ zamanı orada heç bir ev salamat qalmamışdır.

Nəticədə əhalinin çox hissəsi tələf olmuşdur. Sağ qalanlar isə çayı keçərək kiçik bir təpəyə qalxmışlar. Beləliklə, Xınalıq yaranmışdır. Xınalıqlılar islam dininə sitayiş edirlər.



Xınalıq kəndi Qudyalçayın dağlıq düzündə yerləşir. Bir evin damı, ondan yüksəkdə yerləşən digər evin meydançasıdır. Dağlar dik olduğundan evlər çox sıx salınıb. Evlərin hamısı qədimdir, onların yaşı 200-300 ildən artıqdır. Kənddə daha qədim tikililər və xarabalıqlar da var.

Kəndin mərkəzində, ən yüksək yerdə Cümə məscidi diqqət çəkir. Kəndin daha qədim hissəsində zərdüştlərin məbədinin yerində (od məbədi), b.e. VII əsrdə "Bürc" piri adlanan müsəlman ibadətgahı tikilmişdir. Bu pir yalnız müsəlmanların böyük bayramlarında ziyarət olunur.

Xınalığın 2 km yüksəkliyində qayalıqda, içərisində müqəddəs bulağı olan bir mağara var. Oradan saxsı boru vasitəsilə həyətlərə və kəndin mər-



kəzi meydanına su gəlir. Orada böyük bayramlar və təntənələr zamanı kəndin bütün əhalisi toplaşır. Kəndin mərkəzində, ən qədim binada etnoqrafik muzey yerləşir.

Kəndin ətrafında sərt qayalıqlarda qədim qəbirstanlığın qalıqları var. Burada 5 mərtəbəli daş qəbir kameralarının olması, həmin ərazinin yaranma tarixinin daha qədimlərə gedib çıxdığını təsdiqləyir.

Xınalıqlılar qədim adət-ənənələrinə hörmətlə yanaşıb, qoruyub saxlayıblar. Toylar və digər mərasimlər əvvəllər olduğu kimi keçirilir.

Xınalıqlıların əsas məşğuliyyətləri dərman bitkiləri və otların yığılması və qurudulmasıdır. Sonra onlardan həm mətbəxdə istifadə edilir, həm də gələn qonaqlara satılır.

Kənddən dağ yolu ilə "Şah Yaylağına" keçərək Xınalıq aşırımına çatmaq, Qızıl Qaya dağ massivinə (3700 m.) qalxmaq olar. 1997-ci ildə Qızıl Qaya dağ massivinin zirvələrinin birində ümummilli lider Heydər Əliyevin adına gümüş lövhə bərkidilmişdir...

**Turistlərin daha çox istirahət etdikləri yerlərdən biri də Qəçrəş kəndidir. Bu da təsadüfi deyildir. Belə ki, turizm obyektlərinin əksəriyyəti məhz burada fəaliyyət göstərir. Bütövlükdə "Long forest", "Nazlı bulaq", "Quba", "Avand", "Səməd", "Sahil", "Cənnət bağı", "Qəçrəş", "Aynur", "Balbulaq", "Ahu" və digər istirahət zonaları Qubaya qonaq gələnlərin ən çox üz tutduqları məkanlardır...**

